

## ADİL BABAYEV – 80

Ömrünü elmə həsr etmiş əsl alimlər bu adı qazanmağın nə qədər çətin, həm də şərəfli, zəhmətli bir iş olduğunu yaxşı bilirlər. Görünür, alimlər də Allahın xüsusi bacarıq verdiyi insanlar qisminə aiddir. Onlar cəmiyyətə bilik, insanların beynini, şüurunu işıqlandıran nur bəxş edirlər. Məhz belə nurlu, dəyərli alimlərimizdən biri də bütün mənalı ömrünü elmə həsr etmiş görkəmli alim, filologiya elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyinin, Jurnalistlər Birliyinin, Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyasının, AMEA-nın Orfoqrafiya Komissiyasının üzvü, ADU-nun Azərbaycan dilçiliyi kafedrasının müdiri Adil Məhəmməd oğlu Babayevdir. O, şərəfli bir ömür yaşamış, dilçi və ədəbiyyatşünaslıq sahəsində apardığı tədqiqatlarla filologiya elminə dəyərli töhfələr vermişdir.

A.Babayev 1938-ci ilin aprelinin 28-də Ordubadın Dırnıs kəndində anadan olmuşdur. O, orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olmuş, 1962-cı ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Həmin ildən taleyini Azərbaycan Dillər Universiteti ilə bağlamış, A.Babayev bu gün də bu universitetdə işləyir, Azərbaycan dilçiliyi kafedrasına rəhbərlik edir.

Adil müəllim 1969-cu ildə namizədlik, 1996-cı ildə filologiya üzrə doktorluq dissertasiyası müdafiə etmişdir. Onun bütün elmi yaradıcılığı Azərbaycan dilçiliyinin inkişaf yolları ilə bağlı apardığı elmi tədqiqatlarında, dilçiliyin aktual problemlərindən bəhs edən monoqrafiya və dərs vəsaitlərində öz əksini tapmışdır.

Adil Babayev həm də ədəbiyyatşünaslıq, jurnalistika məsələlərilə, bədii yaradıcılıqla məşğul olur. O, ümumilikdə iyirmi kitabın, iyirmi dörd proqramın, iki yüzə qədər müxtəlif xarakterli məqalənin, ali məktəblər üzrə dörd dərsliyin müəllifidir. Problemlərin mahiyyətinə dərindən nüfuz etməsi, elmi dəqiqliyi və ciddiliyi, elmi həqiqətin müdafiəsində prinsipiallığı və ardıcıllığı professor A.Babayevin tədqiqatlarında qırmızı xətlə keçir. O, böyük sayda beynəlxalq və respublika əhəmiyyətli konfrans, simpozium və sessiyalarda elmi məruzələrlə çıxış etmiş, bu elmi tədbirlərdə Azərbaycan dilçilik elmini ləyaqətlə təmsil etmişdir.

Tələbələrin sevimli müəllimi olan Adil Babayev 12 elmlər namizədinin elmi rəhbəri, 3 elmlər doktorunun məsləhətçisi, alimlik dərəcəsi almaq üçün dissertasiya yazmış 40 iddiaçının opponenti olmuşdur.

Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" pyesi Naxçıvan Dövlət Musiqili Dram Teatrında 2008-ci ildən fasiləsiz oynanır, "Sarı gəlin" pyesi 1989-cu ildən Azərbaycan televiziyasında nümayiş etdirilir və Naxçıvanda tamaşaya qoyulmuşdur. Onun son əsəri – "Apardı sellər Saranı" pyesi 1918-ci ildə Naxçıvanın Andranikin qoşunlarının törətdiyi qırğından xilas olunmasına həsr edilmişdir.

Geniş yaradıcılıq diapozonuna malik 80 yaşlı alim bu gün də özünün geniş elmi fəaliyyətini yorulmadan davam etdirir.

Azərbaycan Dillər Universitetinin kollektivi adından hörmətli professor Adil Babayevi təbrik edir, ona möhkəm sağlamlıq, yeni-yeni yaradıcılıq uğurları arzu edirik!

*Redaksiyadan*